# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Əsir olan Daniel


Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Tərcümə edən: Günay Əsədova
Uyğunlaşdıran: Mary-Anne S.



60 Hekayənin 31 -cisi

**www.M1914.org**

***Bible for Children,*** *PO Box 3, Winnipeg, MB R3C 2G1 Canada*



Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Azərbaycan

Azerbaijan

Daniel və onun üç dostu İsraildə yaşayırdı. Bir gün böyük padşah onların ölkəsinə gəldi və bütün ağıllı cavan oğlanları öz ölkəsinə götürdü. Padşahın çox uzun adı var idi – Navuxodonosor – və o, Babil adlanan çox uzaq bir ölkədə yaşayırdı.



1

Cavan oğlanlarla Babildə çox yaxşı rəftar edirdilər. Padşah hər bir ölkədən ən ağıllı və ən yaxşı cavan oğlanları seçmişdir. O, onlara Babil dili öyrətməyi planlaşdırırdı ki, onlar onun qulluqçuları ola bilsinlər və padşahlığı idarə etməkdə ona kömək etsinlər.



2

Yeməkləri də yaxşı idi. Cavan oğlanlar padşahın yedikləri şeylərdən yeyirdilər. Amma Daniel və onun dostları yeməyi yemək istəmirdilər, çünki bu yeməklər yalançı allahlara həsr olunmuşdu. Daniel öz Allahına qarşı heç bir şey etməyəcəyinə söz vermişdi. İsrailin Allahı Öz xalqına bütlərdən, yaxud yalançı allahlardan uzaq durmasını əmr etmişdi.



3

Daniel onun təlimi ilə məşğul olan adamdan padşahın yeməyini yeməməsi üçün icazə aldı. Əgər padşah bundan xəbər tutsa, o, çox qəzəblənəcək. Amma Allah Danieli bu adamın gözündə rəğbət qazandırdı.



4

O Danieli və onun dostlarını yoxladı. On gün onlar yalnız tərəvəz yeyəcəkdilər və yalnız su içəcəkdilər. On gün bitəndə Daniel və onun dostları padşahın yeməyindən yeyənlərdən daha sağlam görünürdülər. Beləliklə, onlara tərəvəz və su ilə qidalanmağa davam etmələrinə icazə verildi.



5

Bu cavan oğlanlar Allaha ehtiram göstərirdilər. Allah da onları izzətləndirdi. Allah onlara öyrəndiyi şeylər üçün bilik və bacarıq verdi və Danieldə bütün görüntüləri və yuxuları başa düşmək hikməti var idi.



6



Babildə üç illik təhsildən sonra bütün cavan oğlanlar padşah Navuxodonosora təqdim edildilər. O, Danieli və onun üç dostunu digərləri içərisindən ən yaxşısı olaraq seçdi. Sözün düzü, padşah, Danieldə, onun padşahlığında olan bütün adamlardan daha çox hikmətə malik olduğunu kəşf etdi.

7

Bir gecə padşah pis yuxu gördü. O, öz sehrbazlarını, ruhçağıranlarını, cadugərlərini və münəccimlərini çağırdı.



8

Padşah dedi: “Bir yuxu görmüşəm və ürəyim sıxılır. İstəyirəm ki, bu yuxunun yozumunu bilim”. Münəccimlər padşaha dedi: “Padşah sağ olsun, yuxunu bu qullarına danış, biz də onu yozaq”.



9

Padşah münəccimlərə cavab verdi: “Mən belə qərara gəlmişəm: əgər siz mənə həm yuxunu, həm də yozumunu söyləməsəniz, parça-parça ediləcəksiniz və evləriniz də viran ediləcək.



10

Əgər yuxunu və yozumunu söyləsəniz, məndən hədiyyələr, mükafatlar və böyük hörmət görəcəksiniz”. Sözsüz ki, heç bir münəccim padşahın yuxusunu yoza bilmədi.



11

Münəccimlər padşaha cavab verdi: “Yer üzündə padşahın tələbini yerinə yetirə bilən adam yoxdur. Yalnız allahlar bunu edə bilər və onlar yer üzündə yaşamırlar”. Padşah çox qəzəbləndi. O əmr etdi: “Babilin bütün münəccimlərini məhv edin!”



12

Əsgərlər Danieli axtaranda, o, padşahın hərbi rəisi Aryokdan soruşdu: “Niyə padşah bütün münəccimləri məhv edir?” Onda Aryok əhvalatı Danielə danışdı. Daniel padşahı görmək üçün getdi. O, yuxunun yozumunu padşaha bildirmək üçün ona vaxt verməsini istədi.



13

Sonra Daniel öz evinə getdi və bütün olanları dostları Şadrak, Meşak və Aved-Neqoya danışdı. Daniel bu yuxunun nə olduğunu, nə də yozmasını bilirdi, lakin o hər şeyi bilən Birini tanıyırdı. O tanıdığı Biri Allah idi. Beləliklə, Daniel və onun dostları dua etdilər.



14

Allah Danielə yuxunu və onun yozmasını göstərdi. Daniel göylərin Allahına şükür etdi. Daniel dedi: “Allahın adı əbədi olaraq izzətlənsin!



15

Çünki hikmət və qüdrət Ona məxsusdur”. Daniel padşahın yanına tələsdi və ona dedi: “Göylərdə sirləri açan bir Allah var”. O, padşaha yuxuda nə gördüyünü və yuxunun yozmasını bildirdi.



16

Padşah Navuxodonosor yuxunu və onun yozmasını eşidəndə üzüstə düşüb Danielə səcdə edərək dedi: “Həqiqətən, sizin Allahınız allahların Allahı və padşahların Ağasıdır, sirləri açan da Odur!”



17

Bundan sonra padşah Danieli yüksək vəzifəyə qoydu və ona çoxlu qiymətli hədiyyə verdi. Onu Babil vilayətinin başçısı və bütün Babil müdriklərinin baş rəisi təyin etdi.



18

Əsir olan Daniel

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Daniel 1-2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün göndərdi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**